Tarix və onun problemləri, №1-2 2009

**YUSIFƏLI HƏSƏNOV**
*AME Akademiyası A.A. Bakıxanov adına Tarix İnstitutunun dissertantı*

# AZƏRBAYCAN - MDB ÖLKƏLƏRI BEYNƏLXALQ TURIZM ƏLAQƏLƏRI SISTEMINDƏ (1991-2005-CI ILLƏR)

X əsrin sonlarında yenidən dövlət müstəqilliyini qazanmış və artıq beynəlxalq, regional və digər təşkilatların üzvü olan Azərbaycan bu gün öz müstəqil tarixinin yeni mühüm səhifələrini yazır, zəngin dövlətçilik ənənələrinə söykənərək yeni, müstəqil siyasi sistemini yaradır, dünya ölkələri ilə xarici münasibətlərini genişləndirir. Müstəqil, demokratik Azərbaycan dövlətinin dünya sistemində belə ciddi fəaliyyəti və dünya dövlətləri ilə bərabərtərəfli münasibətlərini inkişaf etdirməsi əlbətdə ki, dəqiq və uğurlu xarici siyasətlə bağlıdır. Həmin siyasətin həyata keçirilməsi nəticəsində o müstəqillik illərində dünya sistemi ilə ictimai həyatın müxtəlif sahələrində əlaqələr yaratmış və çox böyük əzmlə həmin əlaqələri inkişaf etdirərək, elmi-tarixi əhəmiyyətli təcrübə toplamışdır. Belə zəngin təcrübə, xüsusilə beynəlxalq siyasi, iqtisadi və həm də humanitar sahələrdə toplandığından elmi-tarixi nöqteyi-nəzərdən qiymətli və elmi əhəmiyyətli olmuşdur. Bu baxımdan 1991-2005ci illərdə Azərbaycanın inkişaf etməkdə olan beynəlxalq əlaqələrinin nəzəri, praktiki əsaslarını təhlil edib müəyyənləşdirmək, elmi cəhətdən araşdırmaq, göstərilən sahələrdə yaranmış təcrübəni ümumiləşdirmək, onu müxtəlif mövqelərdən qiymətləndirmək və müvafiq nəticələr çıxartmaq siyasi baxımdan şübhəsiz ki, böyük əhəmiyyətə malikdir. Bu baxımdan Azərbaycanın beynəlxalq turizm sahəsində əlaqələri həm məzmunca, həm mahiyyətcə və həm də miqyasca nəzər-diqqəti cəlb etməyə bilməz. Bu istiqamətdə Azərbaycanın 1991-2005-ci illərdə Müstəqil Dövlətlər Birliyi ölkələri ilə turizm əlaqələrinin inkişaf dinamikasının elmi cəhətdən öyrənilməsinə, onun təhlilinə və qiymətləndirilməsinə böyük ehtiyac zərurətini yaratmışdır. Deməк lazımdır ki, göstərilən tədqiqat dövrü çərçivəsində Azərbaycan MDB ölkələri ilə turizm əlaqələri yaratmaq və inkişaf etdirmək istiqamətində ciddi addımlar atmış və artıq onun hərtərəfli inkişafı üçün bu və digər sahələrdə əhəmiyyətli nəticələr də əldə etmişdir. Lakin müasir dövrdə həmin əlaqələri araşdırarkən SSRİ dövründə turizm sənayesinin necə idarə olunmasını, onun bəzi problemlərini, təcrübəsini aydınlaşdırmadan Azərbaycanın tədqiqat dövründə göstərilən ölkələrlə bu istiqamətdə əlaqələrini təhlil etmədən mümkün deyildir. Odur ki, müəllif bu məqalədə həmin təcrübəyə müraciət etmiş və onun bəzi istiqamətləri barədə materialları təhlilə cəlb edərək, elmi dövriyyəyə buraxmışdır. Qeyd etmək lazımdır ki, SSRI-nin süqutunadək olan müddətdə "İnturist" Ümumittifaq Səhmdar Cəmiyyəti (ÜSC), "Sputnik" Beynəlxalq Gənclər Turizm Bürosu (BGTB) və Həmkarlar İttifaqının Turizm və Ekskursiya Şuraları Rusiyada və digər müttəfiq respublikalarda xarici və daxili turizmin inkişafı məsələləri ilə ciddi məşğul olmuşdular. Sonra isə təbii ki, müstəqillik qazanmış hər bir respublika daxili və xarici turizm sahəsində siyasətini həyata keçirmək üçün müvafiq qurumlarını yaratmışdır. Bu istiqamətdə yeni müstəqillik qazanmış respublikalarla – MDB ölkələri ilə Azərbaycanın beynəlxalq turizm əlaqələri necə olmuşdur sualı maraqlıdır və elmi-tarixi cavab da tələb edir. Məhz bu problem müəllifin təqdim edilmiş göstərilən məqaləsinin predmeti olmuşdur.

Məlumdur ki, 1991-ci ildə Azərbaycanın müstəqilliyini elan etməsi ilə əlaqədar dövlətin beynəlxalq turist əlaqələri artıq Moskvadan deyil, ölkədən idarə olunmağa başlanmışdır. Lakin 1994-cü ilə qədər davam edən Ermənistan – Azərbaycan müharibəsi, ərazi itkisi, hakimiyyət uğrunda gedən mübarizə və özbaşınalıq respublikamızda turizmin inkişafına manеə olmuşdur. Bunu həmin dövrün turizm haqqında ümumi sta-

tistik göstəricisi də təsdiq edir. Məsələn, Azərbaycana turist səfərləri təkcə 1993-cü ildə 80 % azalmışdır. Lakin bu vəziyyət çox uzun çəkməmişdir. Mərhum prezident H.Əliyevin hakimiyyətə qayıdışı ilə əlaqədar olaraq bu sahədə də olan vəziyyət ciddi halda düzəlməyə başlamışdır. Belə ki, məhz H.Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası 1994-cü ildə "Əsrin müqaviləsi", sonra "TRASEKA" proyekti çərçivəsində nəqliyyat koridorunun inkişafı sazişləri başlandı. Bu şübhəsiz ki, turizm sahəsində də yenidən oyanışa səbəb oldu.(1, s. 213) 1995-ci ilin 19 sentyabrında Azərbaycan Respublikası MDB-yə üzv oldu və bunun nəticəsində əldə olunan imkanlar Azərbaycanın həmin ölkələrlə əlaqələrinin məzmununa da öz təsirini göstərməmiş olmadı. Bu isə təsadüfi deyildir. Ona görə ki, MDB birliyi Azərbaycanın turizm əlaqələri sahəsində böyük keçmişi olan ölkələrdən ibarətdir. Eyni zamanda, həm də MDB-ni təşkil edən ölkələrdə çoxlu sayda etnik azərbaycanlıların yaşadıqlarını nəzərdən qaçırmamaq lazımdır. Məhz buna görə də Azərbaycan Respublikasının xarici siyasətində MDB ölkələri ilə, xüsusilə azərbaycanlıların daha çox yaşadığı respublikalar ilə hərtərəfli əlaqələrin qurulub inkişaf etdirilməsinə xüsusi əhəmmiyyət verilmişdir. Bu istiqamətdə tədqiqat dövründə Azərbaycan Respublikası pezidentinin MDB ölkələrinə və o ölkələrin dövlət başçılarının Azərbaycana qarşılıqlı rəsmi səfərləri və həmin səfərlər zamanı çoxlu miqdarda dövlətlərarası və hökumətlərarası müqavilələr imzalanması beynəlxalq əlaqələrimizdə az rol oynamamışdır. Həmin dövrdə də müxtəlif sahələrdə saziş və müqavilələrin imzalanması ilə yanaşı, ölkələr arasında turizmin əhəmiyyəti nəzərə alınaraq bu sahədə də müqavilələr, sazişlər, protokollar və digər sənədlər imzalanmışdır. Məhz bu addımlar da Azərbaycan Respublikası ilə MDB ölkələri arasında beynəlxalq turizm sahəsində hərtərəfli əməkdaşlığın inkişafı üçün hüquqi bazanı formalaşdırmışdır.

Bu baxımdan respublikamız üçün MDB ölkələri ilə turizm əlaqələrinin genişləndirilib inkişaf etdirilməsi təbii xarakter daşıyırdı. Göstərilən illərdə Azərbaycanla MDB ölkələri arasında beynəlxalq turizm əlaqələrinin inkişafına Azərbaycan Respublikasının prezidenti H.Əliyevin 2001-ci il 18 aprel tarixli fərmanı ilə yaradılmış Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi Azərbaycanda turizmin inkişafı üçün güclü təkan vermişdir. Onun səriştəli işi nəticəsində Respublikanın MDB ölkələri ilə turizm sahəsində əlaqələri ölkələrin milli maraqlarına uyğun olaraq daha da genişlənməyə başlamışdır.

MDB ölkələri ilə Azərbaycanın turizm əlaqələrində əsas yerlərdən birini 2002-ci ildən Azərbaycanda hər il keçirilən Beynəlxalq Turizm Sərgiləri və eyni zamanda MDB ölkələrində keçirilən turizm sərgiləri olmuşdur. Qeyd etmək lazımdır ki, qarşılıqlı olaraq təşkil olunmuş bu turizm sərgilərində iştirak Azərbaycanın beynəlxalq turizm əlaqələrinin inkişafında, ölkəmizin turizm potensiyalının təbliğində əvzedilməz rol oynamışdır. Şübhəsiz ki, bu da öz əksini təcrübədə də tapmışdır. Odur ki, 1991-2005-ci illərdə Azərbaycana gələn turistlərin böyük əksəriyyətini MDB ölkələrindən gələnlər təşkil etmişdir. Buna misal olaraq aşağıdakı rəqəmləri göstərmək olar. Əgər 1997-ci ildə MDB ölkələrindən respublikamıza gələnlərin sayı 132 min nəfər olmuşdursa, 2000-ci ildə bu rəqəm 2,6 dəfə artaraq 346,5 min, 2004-cü ildə isə 586,5 nəfərə çatmışdır.(2, s. 505-506) MDB ölkələrindən Azərbaycana gələnlərin böyük əksəriyyətini Rusiya, Ukraina, Orta Asiya Respublikaları və Gürcüstanda yaşayan azərbaycanlılar təşkil etmişdir.

Azərbaycan Respublikası prezidenti mərhum H.Əliyevin 27 avqust 2002-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı" və onun həyata keçirilməsi tədbirlərinin təsdiq edilməsi Azərbaycan-MDB ölkələri arasında beynəlxalq turizm istiqamətində atılan ən mühüm addımlardan biri olmuşdur. Bu sənəd və beynəlxalq turizmə belə yüksək münasibət

şübhəsiz ki, Azərbaycanında dünya turizm, o cümlədən MDB ölkələri ilə beynəlxalq turizm əlaqələrində öz layiqli yerini tutması üçün vacib siyasi bazis idi. Göstərilən illərdə Azərbaycan Respublikası ilə Rusiya dövləti arasında yaranmış beynəlxalq turizm əlaqələri daha geniş olmuşdur. Belə ki, Azərbaycanla Rusiya arasında turizm əlaqələri həm də Moskva Hökuməti və Rusiyanın əyalətləri arasında mövcud olmuşdur. 10 avqust 1993-cü ildə Azərbaycan Respublikası Hökuməti ilə Moskva şəhər Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzalanmışdır.(3, v. 5) 1996-cı ilin 18 yanvarında Moskvada imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında 2000-ci ilə qədər olan dövrdə iqtisadi əməkdaşlığın əsas prinsipləri və istiqamətləri haqqında saziş"in 15-ci maddəsinə əsasən tərəflər müxtəlif sahələrlə yanaşı turizm və idman sahəsində də qarşılıqlı münasibətlərin təmin olunmasında birgə tədbirlər görməliydilər.(4, v. 10) Bununla yanaşı sazişin 11-ci bəndi "Gənclik" beynəlxalq turizm mərkəzi ilə əlaqədar olmuşdur. Bu saziş 13 iyun 1997-ci ildə Azərbaycan Respublikası Hökuməti ilə Moskva Hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq haqqında saziş imzalanana qədər qüvvədə olmuşdur (13 iyun 1997-ci ildə imzalanmış sazişin 19-cu maddəsinə əsasən).(4, v. 10) 13 iyun 1997-ci ildə imzalanmış sazişin 5-ci və 10-cu maddəsi tərəflər arasında turizm sahəsində əməkdaşlığın dəstəklənməsini və inkişaf etdirilməsini nəzərdə tuturdu. Bu əlaqələrin inkişafında şübhəsiz ki, iki ölkə arasında gedən siyasi əlaqələrin dərolu həlledici olmuşdur. Bu baxımdan 2001-ci ilin yanvarında Rusiya prezidentinin Azərbaycana ilk rəsmi səfəri və 2002-ci ilin yanvarında Azərbaycan prezidentinin Rusiyaya səfəri Azərbaycan - Rusiya dövlətlərarası münasibətlərinin tarixində həqiqətən çox mühüm hadisələr olmuşdur. Bu səfərlər zamanı imzalanmış sənədlər ölkələrimiz, dövlətlərimiz arasında keyfiyyətcə yeni qarşılıqlı münasibətlərin etibarlı bünövrəsini qoymuşdur.

Azərbaycan ilə Rusiya arasında turizm əlaqələrinin möhkəmlənib inkişaf etməsində iki ölkə arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın rolu da böyük olmuşdur. Bu barədə faktlar az deyil. Məsələn, 24 aprel 2001-ci ildə, 10 aprel 2002-ci ildə Bakıda keçirilmiş Azərbaycan - Rusiya İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 5-ci və 6-cı iclas protokolunda, həm də komissiya həmsədrlərinin 19 dekabr 2002-ci il görüş protokolunda da turizm sahəsində əməkdaşlığa xüsusi diqqət yetrilmişdir.(5, 10-11 aprel 2002; 11 aprel 2002) Bu sahədə, yəni Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hər iki ölkənin turizm potensiyalının qarşılıqlı olaraq tanıdılması, turist məhsulunun təklifi və yenə də turizm əlaqələrinin genişlənməsi istiqamətində hər iki ölkədə təşkil olunmuş turizm sərgilərinin əhəmiyyəti az olmamışdır. Bu baxımdan Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 10 aprel 2002-ci il tarixli 6-cı iclas protokolunun icrası ilə bağlı Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi 27-30 mart 2002-ci ildə Moskvada keçirilən beynəlxalq "Səyahət və turizm sərgisi"ndə Azərbaycan tərəfinin 24 kvadrat metr stendlə iştirakı əvəzedilməz olmuşdur.(6, v. 27) Bu sərgidə Azərbaycanı dörd mehmanxana kompleksi və doqquz özəl turist şirkəti təmsil etmişdir. Bunlar aşağıdakılardır: İmproteks, Evroturizm, Ramtur, Aitravl, Azərbaycan Travl, JT-jetravl, Azerolimpik, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası, İnturist, Həyat Recins, C-impik Hotel, Qrand Hotel. Diqqəti cəlb edən əsas fərq isə milli ənənələrə uyğun stendlər, bukletlər sərgiyə aparılmışdır. Bu sərgidə iştirak edən Azərbaycan turist şirkətlərindən bir neçəsi Rusiya turist şirkətləri ilə müqavilələr də bağlamışdı. Təbii ki, bu müqavilələr, sərgidə iştirak və bir sıra başqa işlər Azərbaycanın turizm potensiyalının tanıdılması və turist cəlbi üçün mühüm işlər hesab olunmalıdır.

Göstərilən illərdə Rusiya ilə Azərbaycan arasında müalicə turizmi sahəsində də beynəlxalq əlaqələr mövcud olmuşdur. Sovetlər birliyi dövründə sıx münasibətləri qurulan Şimali Qafqazın istirahət və müalicə mərkəzlərinə 1991-1998-ci illərdə Azərbaycandan turist sovet dövrü ilə müqayisədə az getsədə əlaqə tam qırılmamışdır. Bu hər iki tərəfin bazar iqtisadiyyatına keçidlə əlaqədar irəli gələn çətinliklərindən ibarət idi. "Fərid-N" turist kompaniyası 12 avqust 2002-ci ildə Bakı - Mineralni-Vodi turist marşrutu təşkil etmişdir (Stavrapol-Krasnadar).(7, v. 11) Ümumiyyətlə yaxın keçmişdə Azərbaycana dincəlməyə gələnlərin 70-80 faizi Rusiya Federasiyasından gələnlərdən ibarət olmuşdur. Bu turizm əlaqələrində əsasən Azərbaycanda fəaliyyət göstərən lisenziya almış turist şirkətlərindən "İmproteks travel" və "Yevroturizm" şirkətləri olmuşdur və geniş turist mübadiləsi həyata keçirməyə çalışmışdılar. Həmin siyasi addımın arxasınca 2003-cü ilin MDB ölkələrində Sankt-Peterburq ilinin elan edilməsi ilə bağlı Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi tədbirlər planı (14) hazırlamış və yerinə yetirmişdir.(7, v. 17) O cümlədən 7 avqust 2003-cü ildə Bakıda "Böyük Volqa yolu" beynəlxalq konfransının iştirakçıları və 19 sentyabr 2003-cü il Bakıda ümumdünya rus mətbuatı konqresinin iştirakçıları üçün Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən ekskursiya proqramı tərtib edilib, həyata keçirilmişdir.(7, v. 21)

Rusiya ilə Azərbaycan arasında turizm əlaqələri həmçinin hər iki ölkənin üzv olduğu Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında da (QDİƏT) davam etdirilmişdir. Belə ki, 25-26 sentyabr 2003-cü ildə Bakıda keçirilən "QDİƏT regionunda turizm imkanları" Beynəlxalq Konfransında Rusiya Federasiyasının İqtisadi İnkişaf və Ticarət Nazirliyinin Turizm Departamentinin nümayəndəsi iştirak etmişdir.

Azərbaycan - Rusiya beynəlxalq turizm əlaqələrinə aşağıda adları çəkilən tədbirlərin də böyük əhəmmiyyəti olmuşdur. Məsələn, 7 aprel 2004-cü ildə Bakıda keçirilmiş 8-ci və 14 fevral 2005-ci ildə Mosakvada keçirilmiş 9-cu Azərbaycan - Rusiya Hökumətlərarası Komissiyanın protokollarında da iki ölkə arasında turizm əlaqələrinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdu.(8, v. 13) Belə ki, 8-10 aprel 2004-cü ildə Bakıda keçirilmiş "AİTF-2004" 3-cü Azərbaycan Beynəlxalq Turizm sərgisində Rusiya Federasiyasında fəaliyyət göstərən 6 turizm şirkəti və Dağıstan Turizm Nazirliyinin nümayəndə heyəti, 24-27 may 2004-cü ildə isə Moskvada keçirilmiş "MİTT-2004" Beynəlxalq Turizm sərgisində Gənclər, İdman və Turizm Nazirliyinin nümayəndə heyəti və Azərbaycanın üç turist şirkəti iştirak etmişdir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan ilə Rusiya arasında vizasız gediş - gəliş müstəqillikdən sonra da davam etmişdir.

Azərbaycanla Rusiya arasında turizm əlaqələrinin təkmilləşməsi işinə hər iki dövlətin turizm təşkilatları rəhbərlərinin biri-birinə səfərlərinin də əhəmiyyəti böyük olmuşdur. Bu istiqamətdə 27-29 iyul 2004-cü ildə Rusiya Federasiyasının Stavropol vilayətinin İqtisadi İnkişaf və Ticarət Nazirinin birinci müavini V.Milenin başçılıq etdiyi və Qafqaz mineral suları regionunun Pyatiqorsk, Kislovodsk və Yessentuki şəhərinin sanatoriya rəhbərlərindən ibarət nümayəndə heyəti Azərbaycanda səfərdə olmuş və onlarla ölkəmizdə fəaliyyət göstərən turizm şirkətlərinin nümayəndələri arasında işgüzar görüş keçirilmiş və turist mübadiləsi ilə bağlı müvafiq müqavilələr bağlanmışdır. Bundan başqa Azərbaycanın turizm və kurort-sağlamlıq potensiyalı, o cümlədən investisiya layihələri haqqında məlumat Moskva şəhər Turizm Komitəsinə göndərilmişdir. 2003-cü ilin 15-20 oktyabrında Rusiyanın "AZTUR" və Azərbaycanın "STİ" turizm şirkətləri Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin 26 nəfərdən ibarət nümayəndə heyətini Azərbaycanın turizm potensiyalı ilə tanış etmək məqsədi ilə ölkəmizə səfərini təşkil etmişlər.

Eyni zamanda qeyd etmək lazımdır ki, 2005-ci ildə Rusiya Federasiyasında Azərbaycan ili elan olunmuşdur. Bununla əlaqədar 2005-ci ilin may-iyun aylarında Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi tərəfindən Rusiya Federasiyasının Tambov, Stavrapol, Yekaterinburq, Nijni Novqorod, İvanovo və Samara şəhərlərində "Azərbaycanın regionları" adlı turizm təqdimat sərgiləri keçirilmişdir. Sərgilər çərçivəsində turist şirkətləri və kütləvi informasiya vasitələri üçün mətbuat konfransları da təşkil edilmişdir. Bu görüşlərdə Azərbaycan turizmi ilə bağlı reklam çarxı nümayiş etdirilmiş, reklam-çap məhsulları maraqlı tərəflərə paylanmışdır. Ümumrusiya Azərbaycan Konqresinin təşəbbüsü ilə Moskvada keçirilmiş dəyirmi masada Turizm Nazirliyinin nümayəndəsi iştirak etmişdir. Onun arxasınca 2005-ci ilin 14-16 iyununda Sank-Peterburqda keçirilən 9-cu Peterburq Beynəlxalq İqtisadi Forumunda Turizm Nazirliyinin nümayəndə heyəti iştirak etmişdir. 15-20 oktyabr 2005-ci ildə Rusiyada fəaliyyət göstərən "AZTUR" və Azərbaycanda fəaliyyət göstərən "STİ" turizm şirkətləri Rusiyanın aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri üçün Azərbaycanın turizm potensiyalını tanış etmək məqsədi ilə press-info tur təşkil etmişlər. Göstərilmişdir ki, Azərbaycanda fəaliyyət göstərən "İmproteks Travel", "AİT Travel", "Yevroturizm" turist şirkətləri Rusiya Federasiyası ilə turist mübadiləsi etmişdir.(9, v. 51) Həmin dövrdə "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş"in imzalanması da bu sahədə görülmüş işlərin inkişafına imkan vermişdir. Bunlar nəticəsini də təcəssüm etdirmişdilər.

Tədqiqat dövründə, təkcə istirahət mövsümü ərəfəsində Nabran istirahət zonasına gələnlərin 10-15 faizini Rusiya vətəndaşları təşkil etmişdir. Azərbaycana gələnlərə dair statistik məlumatlardan da görünür ki, Rusiyadan gələnlərin sayının çoxalması tendensiyası vardır: 2002-ci ildə ümumi Azərbaycana gələn 834.351 nəfər turistdən 216.923 nəfəri Rusiyadan (25 %), 2003-cü ildə ümumi gələn turistlərin 1.013.811 nəfərindən 401.502 nəfəri Rusiyadan (40 %), 2004-cü ildə ümumi gələn 1.348.655 turistdən isə 496.050 nəfəri Rusiyadan (37 %) olmuşdur.(9, v. 78) Tədqiqat dövründə, yəni 1991-2005-ci illərdə Azərbaycan Respublikası SSRİ dövründə böyük əlaqələri olan Ukrayna Respublikası və onun şəhər və regionları ilə də beynəlxalq turizm əlaqələrinə xüsusi diqqət yetirmişdir. Bu baxımdan 12 sentyabr 1997-ci ildə Bakıda imzalanmış Kiyev və Bakı şəhəri arasında əməkdaşlıq müqaviləsinin 6-cı və 8-ci maddələri turizm sahəsində əməkdaşlığı nəzərdə tutmuşdur.(10, v. 7) Bu prossesə Azərbaycan ilə Ukrayna dövlət başçılarının qarşılıqlı səfərlərinin diqqətəlayiq təsiri olmuşdur. Həmin zamanda çoxlu miqdarda dövlətlərarası və hökumətlərarası müqavilələr imzalanmışdı ki, bu da iki ölkə arasında hərtərəfli əməkdaşlığın inkişafı, o cümlədən beynəlxalq turizm əlaqələri üçün hüquqi bazanı formalaşdırmışdır. Bu baxımdan Azərbaycan Respublikası Hökuməti və Ukrayna Nazirlər Kabineti arasında bərabərlik və qarşılıqlı fayda əsasında turizm mübadiləsinin daha da inkişaf etdirilməsi üçün hüquqi bünövrə yaratmaq istəyi ilə Bakı şəhərində 1 iyul 1999-cu ildə 8 maddədən ibarət sazişin imzalanması əhəmiyyətli olmuşdur.(11, v. 45) Lakin bu saziş demək olar ki, iki ölkə arasında beynəlxalq turizm əlaqələrinin yüksək inkişafına böyük təsir göstərə bilməmişdir. Lakin bu hal iki ölkənin bu istiqamətdə səylərini zəiflətməmişdir. Əksinə Azərbaycan ilə Ukrayna arasında turizm sahəsində beynəlxalq əlaqələrin genişlənib, daha da inkişaf etməsi problemlərinə hər iki tərəfdə marağın artmasına təkan vermişdir. Bunda 19 mart 2000-ci ildə Azərbaycan Respublikası ilə Ukrayna Respublikası arasında 2000-2009-cu illər üçün imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı və iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın bütün iclaslarında turizmə geniş yer ayrılması öz işini görmüşdür.(12) Hər iki ölkənin milli turizm idarələrinin, turist firmaları və mehmanxanalarının təmsilçiləri 3-11 sentyabr 2001-ci ildə QDİƏT çərçivəsində Antal-

yada təşkil olunmuş trenink kursda iştirak etmişdilər. 2001-ci ilin martında Moskvada MDB-yə üzv ölkələrin turizm üzrə şurasının işçi iclasında hər iki ölkənin turizm idarələrinin rəhbərləri iştirak etmiş və hər iki ölkə ÜTT-nin "İpək Yolu üzrə turizm proyekti"nin reallaşmasında iştirakı məsələsini öz üzərlərinə götürmüşdülər.

Azərbaycan Respublikası ilə Ukrayna arasında beynəlxalq turizm əlaqələri təkcə yuxarıda qeyd olunanlarla bitməmişdir. Həmin problemlər həmçinin digər beynəlxalq və regional təşkilatların yığıncaqlarında da müzakirə edilmişdir. Məsələn, 5-6 mart 2002-ci ildə İstanbulda QDİƏT-yə üzv ölkələrin turizm sahəsində əməkdaşlıq üzrə işçi qrupun iclası keçirilmişdi. Bu iclasda Azərbaycan Gənclər, İdman və Turizm Nazirliyinin və Türkiyədəki Ukrayna səfirliyinin nümayəndə heyətləri iki ölkə arasında turizm sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparmışdılar. 25-26 sentyabr 2003-cü ildə Bakıda "QDİƏT regionunda turizm imkanları" mövzusunda keçirilmiş beynəlxalq konfransda Ukraynanın Azərbaycan Respublikasındakı səfirliyinin nümayəndəsi iştirak etmişdir. GUÜAM çərçivəsində turizm sahəsində əməkdaşlıq üzrə sahələrarası qrupun Azərbaycan tərəfinin tərkibi təsdiq olunmuş və Ukrayna tərəfinə göndərilmişdir.(13)

Tədqiq olunan 1991-2005-ci illərdə Azərbaycan Respublikası Qazaxstan Respublikası ilə də rəsmi beynəlxalq turizm əlaqələri yaradıb inkişaf etdirmişdir. Bu proses Qazaxıstanla Azərbaycan arasında 22 oktyabr 1999-cu ildə imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq tədbirləri üzrə planın mədəniyyət, elm, turizm bəndində beynəlxalq turizmin inkişaf etdirilməsi, 1999-2000-ci illərdə aviaturların təşkili, 1999-2000-ci illərdə Qazaxstanın və Azərbaycanın turist nümayəndəliklərinin açılmasına kömək edilməsi, 1999-2000-ci illərdə turizm informasiyalarının - reklam materialları, çap nəşrləri, filmlər və sərgilərin mübadiləsinin aparılmasının daha da fəallaşmasına güclü təsir göstərmişdir.(14, v. 9) Planın turizmə aid olan 5.3, 5.5 bəndlərinin icrası ilə bağlı Qazaxstan Respublikası Turizm və İdman üzrə Agentliyinə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm Şurası tərəfindən turizm saziş layihəsi və Azərbaycan Respublikası haqqında məlumat göndərilmiş, Ümumdünya Turizm Təşkilatı və UNESCO tərəfindən keçirilən beynəlxalq görüş və forumlarda, eləcədə MDB Turizm Şurası çərçivəsində Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin və Qazaxstan Respublikasının Turizm və İdman üzrə Agentliyinin nümayəndələri görüşlər keçirmişdilər.

Qazaxstanla imzalanmış 22 oktyabr 1999-cu ildə uzunmüddətli iqtisadi əməkdaşlıq tədbirləri üzrə planın iki ölkə arasında beynəlxalq turizm tədbirlərinin növbəti illərdə də icrası davam etdirilmişdir. Belə ki, 2003-cü il ərzində planın 5.3 bəndinin icrası tələblərinə əsasən İstanbulda, Moskvada və Londonda keçirilən beynəlxalq turizm sərgiləri çərçivəsində Qazaxstanın turizm nümayəndələri ilə əlaqələr qurulmuş, iki ölkənin turizm potensiyalı haqqında fikir mübadiləsi aparılmış və Azərbaycanın turizm potensiyalını əks etdirən çap və reklam məhsulları Qazaxstan tərəfinə təqdim olunmuşdur. Öz növbəsində Qazax Turizm Asossiasiyası öz fəaliyyəti haqqında məlumatı elektron poçt vasitəsilə Gənclər, İdman və Turizm Nazirliyinə göndərmişdir.(14, v. 14) Azərbaycanda fəaliyyət göstərən "İmproteks Travel", "Albanavia", və "Skylife" turizm şirkətləri Qazaxstan ilə turizm mübadiləsi aparmış, "İmair" aviaşirkəti Bakı-Almata-Bakı reysi ilə hər həftə mütəmadi olaraq uçuşlar təşkil etmişdir.(14, v. 16) 2003-cü ildə planın turizmə aid 5.5 bəndinin icrası ilə bağlı 2002-ci ildən Azərbaycanda keçirilən "AİTF-2004" 3-cü Azərbaycan Beynəlxalq Turizm Sərgisində Qazaxstan turizm təşkilatının iştirakı ilə bağlı dəvət məktubu göndərilmiş və Qazaxstan Respublikası bu sərgidə təmsil olunmuşdur. Ümumiyyətlə hər ilin aprel ayının ikinci həftəsində keçirilən Azərbaycan Beynəlxalq Turizm Sərgisində Qazaxstan fəal iştirak etmişdir.(14, v. 32)

Nəhayət Qazaxstan Respublikası ilə əlaqələrin genişləndirilməsinə diqqət yetirilməsinnin nəticəsi olaraq 1 mart 2004-cü ildə Azərbaycan Respublikası Hökuməti və Qazaxstan Respublikası Hökuməti arasında mədəniyyət, elm və turizm sahəsində yeni uzunmüddətli əməkdaşlıq proqramı imzalanmışdır.(14, v. 35) Proqramın 4-cü bəndi iki ölkə arasında turizm əlaqələrinin inkişafını nəzərdə tutmuşdur.

Azərbaycan və Qazaxstan arasında "Azal" şirkəti tərəfindən Bakı-Aktau və "İmair" şirkəti tərəfindən Bakı-Alma-Ata istiqamətlərində birbaşa aviareyslər həyata keçirmişlər, Azərbaycanın bir sıra turist şirkətləri Qazaxstanın turist şirkətləri ilə əməkdaşlıq etmişdir. Nəticədə 2004-cü ildə 6924 nəfər, 2005-ci ilin 6 ayı ərzində 3989 nəfər turist Qazaxstandan Azərbaycana səfər etmişdir. Bu əlaqələrin nəticəsi olaraq 24 may 2005-ci ildə yeni "Azərbaycan Respublikası Hökuməti və Qazaxstan Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş" imzalanmışdır.(14, v. 53)

Azərbaycanın beynəlxalq turizm sahəsində əlaqələr qurduğu ölkələrdən biri də Belarusiya olmuşdur. Rusiya Federasiyası ilə olduğu kimi Belarusiya Respublikası ilə də Azərbaycanın turizm əlaqələrini inkişaf etdirmək üçün bu sahədə müxtəlif müqavilə, saziş, protokol imzalanmış və hökumətlərarası komissiyanın protokollarında da turizm sahəsi əsas məsələlərdən biri kimi müzakirə olunmuşdur. Nəticədə 5 noyabr 2004-cü ildə Bakıda Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır.(15, v. 6) Lakin təssüflər olsun ki, bu saziş ikitərəfli turizm əlaqələrinin inkişafına təkan verə bilməmişdir.

Tədqiqat dövründə Azərbaycan Respublikası zəngin turizm potensiyalı olan Orta Asiya Respublikaları ilə də müxtəlif əlaqələr kontekstində beynəlxalq turizm əlaqələrinin inkişafına xüsusi diqqət yetirmişdir. Nəticədə 27 may 1996-cı ildə Bakıda Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında iqtisadi, sosial və mədəni tərəqqidə turizmin əhəmiyyətli rolunu nəzərə alaraq turizm sahəsində əməkdaşlıq haqqında saziş imzalanmışdır.(16, v. 14) Təssüflər olsun ki, bu saziş də Azərbaycan və Özbəkistan Respublikası arasında turizm əlaqələrinin genişlənməsinə şərait yaratsada, həmin əlaqələrin inkişafına təkan verməmişdir. Ancaq Özbəkistan Respublikasında yaşayan etnik azərbaycanlılar ana vətənləri Azərbaycana daimi ailəvi səfərlər etmişdilər. Bundan başqa böyük ipək yolunun çəkilməsi ilə əlaqədar hər iki ölkə arasında turizm sahəsində canlanma yaratmaq məqsədilə turizm layihələri hazırlanmaqdadır.

1991-2005-ci illərdə Azərbaycan belə formada beynəlxalq turizm əlaqələri Qırğızıstan, Türkmənistan, Tacikstan və Gürcüstan Respublikaları ilə də yaratmışdır. 23 aprel 1997-ci ildə Azərbaycan Respublikası və Qırğızıstan Respublikası arasında Bakı şəhərində beynəlxalq turizm sahəsində daha effektiv ikitərəfli əməkdaşlığa çalışaraq on maddədən ibarət saziş bağlanmışdır.(17, v. 8) Bu saziş də ikitərəfli turizm əlaqələrinin inkişafına şərait yaratsada iki ölkə arasında beynəlxalq turizmin inkişafına təkan verməmişdir və bu günə qədər də işləmir.

1998-ci il 9 noyabr tarixində Azərbaycan Respublikası və Gürcüstan İcra Hakimiyyəti arasında bərabərlik və qarşılıqlı fayda əsasında iki ölkə arasında beynəlxalq turizmi inkişaf etdirməyə qarşılıqlı marağı əsas götürərək Bakı şəhərində 12 maddədən ibarət müqavilə imzalanmışdır.(18, v. 24) Bu müqavilə də ikitərəfli turizm əlaqələrinin inkişafına təkan verməmişdir. Lakin qeyd etmək lazımdır ki, Gürcüstan Respublikasında öz tarixi torpaqlarında yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan etnik gürcülər iki ölkə arasında etnik və şop turizmin inkişafına nail olmuşlar və bu istiqamətdə işlərin gələcəkdə də davam etdirilməsinə ümid hissləri yaşamaqdadır.

Demək lazımdır ki, Azərbaycanla MDB ölkələri arasında beynəlxalq turizm əlaqələri yuxarıda göstərilən çətinliklərə baxmayaraq 1991-2005-ci illərdə bəzi müsbət nəticələr vermişdir. Məlumatlara müraciət edək: MDB ölkələrindən Azərbaycana 1997-ci ildə 132151, 1998-ci ildə 301287, 1999-cu ildə 427564, 2000-ci ildə 346482, 2001-ci ildə 320229, 2002-ci ildə 791051, 2003-cü ildə 25534, 2004-cü ildə 586416 nəfər turist gəlmiş, Azərbaycandan isə 1997-ci ildə 291183, 1998-ci ildə 800416, 1999-cu ildə 724250, 2000-ci ildə 691408, 2001-ci ildə 542052, 2002-ci ildə 1136935, 2003-cü ildə 18513, 2004-cü ildə 14765 nəfər turist MDB ölkələrinə getmişdir.(19, s. 308; s. 295) Bu rəqəmlər şübhəsiz ki, göstərilən istiqamətdə atılan addımların əhəmiyyətli və elmi dəyərli olmasından xəbər verir.

Beləliklə göründüyü kimi, 1991-2005-ci illərdə Azərbaycanla MDB ölkələri arasında beynəlxalq turizm əlaqələri diqqəti cəlb edici dərəcədə inkişaf etmiş və bu istiqamətdə lazımi tarixi təcrübə toplanmışdır. Bu istiqamətdə Azərbaycanın MDB ölkələri ilə formalaşdırıb həyata keçirdiyi turizm əlaqələrinin köməyi ilə bu təşkilat daxilində ölkələrin xalqları və millətləri biri-birini daha yaxşı tanımaq, ölkələrinin tarixini öyrənmək imkanı əldə etmiş, onlar arasında ticarət canlanmış və bunlar hamısı birlikdə sosial inkişafa və yeni iş yerlərinin yaranmasına səbəb olmuşdur. Azərbaycanın MDB ölkələri ilə beynəlxalq turist əlaqələri və mübadiləsi nəticəsində yaranan yeni münasibətlər şübhəsiz ki, həmin ölkələrin xalqlarının dostluğunun möhkəmləndirilməsinə müsbət təsir etmiş və yeni əlaqələr üçün imkanlar açmışdır. Azərbaycanın MDB ölkələri ilə 1991-2005-ci illərdə həyata keçirdiyi beynəlxalq turizm əlaqələrinin göstəriciləri belə olmuşdur. Hazırda bu əlaqələr yeni məzmundadır və böyük perspektivlər vəd edir.

### *ƏDƏBIYYAT*

1. T.Qaffarov. Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s. 213.
2. Məmmədov C.A, Soltanova H.B, Rəhimov S.H. Beynəlxalq turizmin coğrafiyası. Bakı, 2002, s. 505–506.
3. Gənclər, İdman və Turizm Nazirliyinin Beynəlxalq Əlaqələr Şöbəsi Rusiya Federasiyası Moskva qovluğu, v. 5. (Yığım müəllifindir).
4. Yenə orada (Rusiya Federasiyası ilə əlaqələr qovluğu № 1, v. 10). (Yığım müəllifindir).
5.Azərbaycan qəzeti, 10-11 aprel 2002; Respublika qəzeti, 11 aprel 2002.
6. Gənclər, İdman və Turizm Nazirliyi Turizm Baş İdarəsi Daxili Turizm Şöbəsinin sərgilər qovluğu, v. 27. (Yığım müəllifindir).
7. Gənclər, İdman və Turizm Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsi Rusiya Federasiyası ilə əlaqələr qovluğu № 2, v. 11, 17, 21. (Yığım müəllifindir).
8. Yenə orada (Rusiya Federasiyası vilayətlər qovluğu, v. 13). (Yığım müəllifindir).
9. Yenə orada (Rusiya Federasiyası ilə əlaqələr qovluğu № 2, v. 51, 78). (Yığım müəllifindir).
10. Yenə orada (Ukrayna Respublikası ilə əlaqələr qovluğu № 2, v. 7). (Yığım müəllifindir).
11. Yenə orada (Ukrayna Respublikası ilə əlaqələr qovluğu № 1, v. 45). (Yığım müəllifindir).
12. Yenə orada (Ukrayna Respublikası ilə əlaqələr qovluğu № 1, "Azərbaycan Respublikası ilə Ukrayna Respublikası arasında 2000-2009-cu illər üçün imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı", "İqtisadi əməkdaşlıq məsələləri üzrə birgə hökumətlərarası komissiyanın iclas protokolları").
13. Yenə orada (Ukrayna Respublikası ilə əlaqələr qovluğu № 1, "Azərbaycan Respublikası ilə Ukrayna Respublikası Hökumətləri arasında 2000-2009-cu illər üçün imzalanmış uzunmüddətli iqtisadi əməkdaşlıq proqramı"nın icrası haqqında arayış).
14. Yenə orada (Qazaxıstan Respublikası ilə əlaqələr qovluğu, v. 9, 14, 16, 32, 35, 53). (Yığım müəllifindir).
15. Yenə orada (Belarusiya Respublikası ilə əlaqələr qovluğu, v. 6). (Yığım müəllifindir).
16. Yenə orada (Özbəkistan Respublikası ilə əlaqələr qovluğu № 1, v. 14). (Yığım müəllifin-

dir).
17. Yenə orada (Qırğızstan Respublikası ilə əlaqələr qovluğu, v. 8). (Yığım müəllifindir).
18.Yenə orada (Gürcüstan Respublikası ilə əlaqələr qovluğu, v. 24). (Yığım müəllifindir).
19. Azərbaycanın statistik göstəriciləri 2004, Bakı, "Səda" nəşriyyatı, 2004, s. 308; Azərbaycanın statistik göstəriciləri 2005, Bakı, "Səda" nəşriyyatı, 2005, s. 295.

**ЮСИФАЛИ ГАСАНОВ**
***Диссертант Института Истории НАН Азербайджана***

## АЗЕРБАЙДЖАН В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ТУРИСТИЧЕСКИХ СВЯЗЕЙ СО СТРАНАМИ СНГ (1991-2005 ГГ.)

Как видно из названия статьи, здесь рассматриваются туристические связи Азербайджана со странами СНГ, динамика развития этих отношений, знакомство с потенциалом туризма Азербайджана в этих странах, то есть статья посвящена научно – историческому анализу международных туристических отношений, зародившихся и развивающихся между странами СНГ в рамках указанного периода. В данной статье приводятся сведения об основных направлениях сотрудничества в области международного туризма, реализуемого между этими странами в указанный период, исследуются его содержание, важность, его форма и масштаб. Наряду с этим, в статье нашёл отражение высокий интерес азербайджанского правительства к туризму.В то же время, в исследовании нашли отражение проводимые мероприятия в области расширения связей Азербайджана со странами СНГ, важность укрепления позиции республики в данном направлении в международном мире.

**YUSIFALI HASANOV**
***Researcher of the History Institute of NAS of Azerbaijan***

## AZERBAIJAN IN THE SYSTEM OF INTERNATIONAL TOURISM RELATIONS WITH CIS COUNTRIES (1991-2005 YEARS)

The article is looked through tourism relations of Azerbaijan with CIS countries, development dynamics of these relations, Azerbaijanis tourism potential, that is to say this article devoted to scientific – historical analysis of international tourism relations generated and developed between CIS countries is shown period. It also gives information about main directions of cooperation in international tourism field realized between these countries in period is shown by the author, researched its content, importance, form and scale. Besides Azerbaijan Government interests to tourism find their repulse in this article. At the same time realized actions in the field of expansion of Azerbaijan's relations with CIS countries, importance of republics position strengthening in this direction in international world are researched in it.

***Rəyçilər: t.e.n.Ə.B.Ələkbərov, t.e.d.L.L.Həsənova.***
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın beynəlxalq əlaqələri tarixi» şöbəsinin 13 fevral 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***